*Gülnarə SADIQOVA*

# MÜASİR MEDİADA ANALİTİK JURNALİSTİKANIN İNKİŞAF PROSESİ

## РЕЗЮМЕ

Статья посвящена аналитической журналистике, в которой исследуются возникновение и развитие аналитической журналистики. Отмечены статьи выдающихся классиков публицистов Азербайджана и изменения, происходящие в среде аналитической журналистики.

***Ключевые слова:*** аналитическая журналистика, аналитическая статья, анализ, пресса, факт, событие, политика, культура.

## SAMMARY

Article focuses on analytical journalizm in which the origin and development of analytical journalism is being researched. For the study were given the state publications, independent and oppasition press.

***Key words:*** analytical journalism, analytical article, analysis, press, fact, event, policy, culture.

Azərbaycan ziyalıları, ədəbiyyat və mətbuat xadimləri, o cümlədən H.Zərdabi, Ə.Ağaoglu, Ə.Topçubaşov, M.Rəsulzadə, Ü.Hacıbəyli və b. mətbu fəaliyyəti və publisistikası sosial-fəlsəfi mühakimə tərzi ilə seçilir, elmi-nəzəri ümumiləşdirmələri və analitik düşüncəsi ilə mövcud vəziyyətin, fakt və hadisələrin şərhinə xidmət edirdilər. Yazıçı-jurnalistlər müasirlərini, Azərbaycan cəmiyyətini dünyada baş verən hadisələrdən xəbərdar edərək, ölkədə şəffaf informasiya mühitinin yaradılmasına çalışırdılar. Publisistlər yaradıcılıqlarında janr və formasından asılı olmayaraq azadlıq ideyansını baş problem kimi götürürdülər. Burada müxtəlif üsul və vasitələrlə siyasi, bədii, fəlsəfi, hüquqi və s. mühakimə tərzi özünü göstərməkdə idi. Məsələn, bu cür konseptual baxış, Ə.Hüseynzadənin iri həcmli «Siyasəti-Fürusət», «Qərbin iki dastanında türk», «Əbdi-Qlaf və Məhfərə qulu» əsərləri ilə yanaşı publisistikasında da aydın görünməkdədir. Onun «Zəmanəmizin Ömər Xəyyamı», «Hürriyyət», «Ramazan-əl-mübarək və hürriyyət», «Rusiya inqilabının əhəmiyyəti-aləmiyyəsi», «Abdulla Cövdət», «İctihad» ilə Misirdə ictihada başlayır», «İngilis əşarı türk dilində və «Şilyon məhbusu», «Ey qələm», «Kuhi-Qaf və Simurq», «Hürriyyət və Vətən Firdovsi» və s. bu kimi məqalələri dərin təhlili ilə diqqəti cəlb edir. Ədibin tarixi proseslərə və ictimai siyasi hadisələrə bələdliyi, onlardan ümumiləşdirilmiş elmi-məntiqi nəticələr çıxarmaq bacarığını nümayiş etdirir.

Klassik publisistlərimiz özlərindən sonra Azərbaycan xalqı üçün böyük irs qoyub getmişlər. Mətbuatda analitik məqalələrin mövzu dairəsi çox geniş və əhəmiyyətli idi: təhsil, millətin savadlanması; dil məsələsi, milli ədəbiyyat, əlifba məsələsi ətrafında mübahisələr, dərsliklər ətrafında mübahisələ; qadın problemi, çadra məsələsi ətrafında mübahisələr; din xadimləri ilə təhsillilər arasnıda mübahisələr; türkçülük, islamçılıq, müasirləşmək – xalqa, millətə və qeyri millətlərə münasibət. Özünü bəyənməmək, başqa dildə danışmaq, Avropasayağı həyat və s.

90-cı illərdə Azərbaycanda jurnalistika aləmində inkişaf prosesi müşahidə olunurdu ki, bu ona verilən azadlıqlardan irəli gəlirdi. İnternet jurnalistikanin isə bu günkü gədər inkisaf etməməsi səbəbdən informasiya bolluğu yox idi. Belə ki, analitik jurnalistikaya maraq artır – mediada çalişan jurnalistlərin yaradiciliğinda yeniləşmə baş verir. Bu isə jurnalistika uçun qeyri dinamik, konkret çərçivə məhdudiyyətini aradan qaldirir. Çünki analitik jurnalistika azad cəmiyyətdə inkisaf edir və jurnalistikanin intellektual səviyyəsi sayılır, önəmli olan icə materialin ciddi proseslərə və hadisələrə təsir etməsidir. Bu inkisaf son illər muşahidə olunur – analitik jurnalistika qarşisina qoyulan problemləri lazımi şəraitə uyğunlaşaraq şərh edir, proqnoz verir və həlli yollarini göstərir.

Analitik jurnalistikaya meylin artmasının əsas səbəbi isə 2000-ci ildən qüvvədə olan «Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası qanunu»nda mətbuat, söz, fikir azadlığı, senzuranın

yolverilməzliyidir. Lakin bu azadlıqlarla yanaşı, məsuliyyət hissinin və jurnalist etikası normalarının itirilməsinə yol verilməməsi şərti ilə.

Azərbaycanda mətbuat janrlarının tarixi inkişafını tədqiq edən mərhum Prof.F.Mehdi «Mətbuat janrları» dərsliyində janrların yaranması, inkişafı, formalaşması – ümumiyyətlə, sənətkarlıqa yiyələnməsi haqda yazırdı: «...sonralar faktlara təhlil vermək, hadisələri qiymətləndirmək, onlara mynasibət bildirmək, faktı şərh etmək tələbi qarşıya çıxdı. Beləliklə, qəzet səhifələrində hesabatlar, icmallar göründü» [1,5]. Janrların müasir inkişaf prosesini izləyən prof.C.Məmmədli «Jurnalistikanın müasir inkişaf meylləri» dərsliyində [2, 245] bu məsələyə «Jurnalistika janrlarının inkişafında yeni mədamlar» adı altında bir paraqraf ayırmışdır. Burada janrların diffuziyaya uğraması haqqında fikirlərə nəzər salaq. «...Janr, həqiqətən də, qeyri-sabit, dəyişən sistemdir. Yaradıcılıq prosesində hər bir şeyin hərəkətdə, inkişafda olduğunu nəzərə alsaq, jurnalistikada da janrların bu keyfiyyətinə təəcüblənmək deyil, onun qanunauyğunluqlarını izah etmək lazımdır» [2,245]

Nəzəriyyəçilər ənəvi olaraq analitik jurnalistikanin rəngarəng janrlarını müəyyən etmişlər. Bu gun bu janrlar yeniləşir, müxtəlif metodlardan istifadə olunur (müstəqil tədqiqat, araşdirma), əlverişli formalar yaradilir. Professional jurnalistlər analitik jurnalistikaya daxil olan ənənəvi janrlarin sərhədlərini pozaraq onlari zəngilləşdirir, yeni keyfiyyətlərini üzə çıxararaq təkmilləşməsi prosesinə yenilik gətirməyə çalişirlar. Bunlarla bərabər "...əsas məqsəd yürüdülən fikri oxucuya asan yolla çatdirmaqdir"(çernik). Rus nəzəriyyəçisi prof.V.V.Uçyonova isə jurnalistika janrlarini tədqiq edərək yazmişdi: «Janrlarin diffuziyasi onlarin zənginkəşdirilməsinə səbəb olub» [2,244] Vaxtı ilə yalniz xəbər jurnalistikasına daxil olan hesabat, müsahibə və s. bu gün yeniləşərək məqsədinə görə analitik jurnalistikaya da aiddir. Esse, köşə yazıları, müsahibə, mətbuat icmalı və s. televiziyada ugurlar qazanmış, digərləri isə əksinə mətbuatda daha da intensivləşmişdir.

Analitik jurnalistikaya daxil olan janrlara müasir baxışları nəzərdən keçirdikdə rus nəzəriyyəçisi L.E.Kroyçikin fikirləri maraq doğurur. Belə ki, nəzəriyyəçi analitik jurnalistikaya daxil olan janrları aşağıdakı kimi qruplaşdırmışdı: xəbər xaraterli tədqiqat işi aparan materiallar (korrespondensiya, şərh, köşə yazıları, resenziya); tədqiqat işi aparan materiallar (məqalə, publisistik icmal, məktub) [4,149]

Prof.Q.Məhərrəmli «Kino, televiziya, radio terminləri» izahlı lüğətdə yuxarıda adı çəkilən terminlərin izahını belə vermişdir: analitik (analyst ) – siyasi və iqtisadi proseslərin təhlili ilə məşğul olan mütəxəssis; analitik material (analytical material ) – məzmunu və mahiyyəti konkret dəlillər əsasında təhlil olunan EE material; analiz və sintez (analysis and synthesis ): 1) təhlil; 2) tamın fikri və ya faktik olaraq hissələrə bölünməsindən ibarət olan elmi-tədqiqat metodu. Bu metod analitik verilişlərdə də tətbiq edilir[3]

Bu gün təhlil və şərh demək olar ki, janrların əksəriyyətində mövcuddur.

Təbiidir ki, bu təhlillər informativ janrlarda olan fakt və hadisələrin əsasında ğötürülür. Cünki həyatda baş verən bir cox hadisələrin, problem və situasiyaların təhlili, onlarla bağlı faktların araşdırılması dəlil və sübutların gətirilməsi, onların qiymətləndirilməsi və obyektiv nəticə cıxarılması vacibdir.

Hazırki şəraitdə mətbuatımızda, artıq qeyd etdiyimiz kimi, yenidənqurma ilə əlaqədar dəyişikliklər nəzərə çarpır, mutasiyası müşahidə olunur. Proses bir necə istiqamətdə cərəyan edir. Birincisi, janrların qarşılıqlı əlaqəsi əmələ ğəlir: lakonikliyi və cəldliyi ilə əlaqədar informasiyalı korrespondensiyalar reportaja, mətnin qismən sadəliyi isə onu ğeniş xəbərə yaxınlaşdırır. Analitik korrespondensiya şərhə yaxınlaşır və s. Müasir mətbuatda korrespondensiya janrının özü yeniləri ilə sıxışdırılır və yaxud modifikasiya olunur, məsələn bunlar eksperiment (süni yaradılmış situasiya), ehtimal (versiya - jurnalist araşdırmasının nətiçəsi), sosioloji rezüme və s. İkinçisi, bəzi janrlar mətbuat səhifələrindən tədriçən yoxa çıxırlar. Üçüncüsü, kommunikativ sahədən ğələn, yeni janrlar əmələ ğəlir – pablik rileyşnz (press-reliz, baylayner, keys-stori, fiçerz). Artıq özünün funksional dolğunluğu olan PR-fəaliyyətinə oxşayan «nyusmeyker» (Jurnalistlərin diqqətinə layiq şəxs, yaxud hadisə. Mətbuatın təşəbbüsü ilə bəzən söz nyusmeykerlərə (xəbər hazırlayanlara) verilir – hər-hansı sahənin ixtisasçısına, avtoritetinə. Bunlar biznesmen, alim, politoloqlar və s. ola bilərlər. Redaksiyanın xahişi ilə, ictimai «avtoritet»lər hər-hansı hadisəyə şərh verir, situasiyanın təhlilini edir, proqnozlar verirlər.

Janrın daxili dəyişməsi həm də onun tarixi inkişafı ilə əlaqədardır - sadədən mürəkkəbə qədər. Məsələn, adi xəbərdən başlayaraq ciddi analitik materiallara kimi. Müasir jurnalist yazıları nəzəri cəhətdən təhlil olunarkən məlum olur ki, bəzi janrlar öz xüsusiyyətlərini möhkəmlədir, yaxud diğərlərinə transformasiya edir. Məsələn, köşə yazıları (mətbuat səhifəsindəki yerinə ğörə belə adlanmışdı), replika (mini-korrespondensiya) və s. Bu hər zaman belə olmuşdur: jurnalist əsərlərinin janrlılığı şübhə altına alınmışdır, müəllif yaradıcılığını ideal janr modelinə yaxınlaşdırmaq uğrunda düzəlişlər edilmişdir. Məsələn, baş məqalə müəllifin köşə yazısı ilə əvəz olunur. Bəzən müəlliflər köşə yazılarının subyektivliyindən istifadə edərək, onun janr xüsusiyyətlərindən uzaqlaşaraq qərəzli fikirlərini, böhtan və nifrət hisslərini bildirməsi üçün bir vasitəyə çevirirlər.

KİV bu gün çoxsaylı rəngarəng janrlar ilə rastlaşır. Və bunların əksəriyyəti ciddi hesab etdiyimiz analitik jurnalistikaya aiddir. Ciddi olması isə bu sahədə çalışan jurnalistlərdən məsuliyyət hissinin artırmasını tələb edir. Onlar ən aktual problemlərə toxunur, onların həlli yollunda bir sıra jurnalist sənətkarlığında işlənilən metodlardan istifadə edirlər ki, bu da hadisələr haqqında məlumatı ötürməkdən çox, onları təhlil, tədqiq edib, araşdırma işləri aparılması vacib hesab olunur.

Analitik janrlar öz spesifik xüsusiyyətlərinə görə, fakt və hadisələrin təhlilinə, onların müvafiq analizlər əsasında qiymətləndirilməsinə, eləcədə

ümumiləşdirmə keyfiyyətlərinə görə müəyyənləşdirilir. Əsas, aparıcı keyfiyyətlərini qoruyaraq, ənənəyə sadiq qalaraq janrlar hər zaman zənginləşir, yeniləşir, müsbət, effektiv amilləri özündə cəmləşdirir.

## ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. Mehdi F. Mətbuat janrları. Bakı, 1995.
2. Məmmədli C. Ə. Jurnalistikanın müasir inkişaf meulləri. Bakı, «Elm» nəşr., 2006.
3. Məhərrəmli Q. Kino, televiziya, radio terminləri izahlı lüğəti. B., 2002.

**Rus dilində:**

4. Кройчик Л.Е. Основы творческой деятельности журналиста. Учеб. пособие /М.: Аспект Пресс, 2010
5. Тертычный А.А. Аналитическая журналистика. Учеб. пособие /М.: Аспект Пресс, 2010
6. Черникова Е.В. Основы творческой деятельности журналиста. Учеб.пособие/- М.: Гардарики, 2005